# ƏDƏBİYYATDA DİKTATOR OBRAZI (QABRİEL QARSİA MARKEZİN "PATRİARXIN PAYIZI" ƏSƏRİ ƏSASINDA)

**Talıbova Aysel Saleh qızı**
Bakı Mühəndislik Universiteti
Dünya ədəbiyyatı (doktorant) – 5718.01

**Xülasə**

Tədqiqat işində Q. Q. Markezin məşhur əsərlərindən biri olan "Patriarxın payızı" əsərindən bəhs olunmuşdur. Əsər yazıçının vətəninin – Kolumbiyanın, eləcə də bütövlükdə Cənubi Amerikanın XIX-XX əsrlərdəki tarixi-siyasi gerçəkliklərinə güzgü tutmuşdur. Əsərdə yazıçı patriarx obrazı timsalında bəhs olunan dövrlərdə ispan ağalığına son qoyulduqdan sonra yaranan dövlətlərdə meydanda at oynadan siyasi liderlərin ümumiləşmiş obrazını yaratmağa çalışmışdır. Tədqiqat işi həmin liderlərin patriarx obrazında əks olunan xüsusiyyətlərini bir çox yöndən təhlil etməyə həsr olunmuşdur. Məqalə giriş, üç yarımbaşlıq ("Patriarx və Markez", "Patriarxın prototipləri", "Patriarx obrazının psixoloji təhlili") və nəticədən ibarətdir.

***"Giriş"*** hissəsində əsər və onun süjet-kompozisiya xətti haqqında ümumi məlumat verilmişdir.

***"Patriarx və Markez"*** hissəsində yazıçının patriarx obrazına münasibəti haqqında bəhs olunmuşdur. Müsahibələrində bildirdiyinə görə, Markez patriarx obrazında bir növ öz xarakterini də canlandırmağa çalışmışdır. Bu yarımbaşlıqda Markezin patriarx obrazında yaratmış olduğunu iddia etdiyi xarakter xüsusiyyətlərinə nəzər yetirilmiş və müəyyən münasibət bildirilmişdir.

***"Patriarxın prototipləri"*** hissəsində Markezin patriarx obrazını yaradarkən xarakter xüsusiyyətlərindən və həyat trayektoriyalarından yararlanmış olduğu diktatorlar, siyas liderlərdən bəhs olunmuş; nəticədə, yazıçının bir çox Cənubi Amerikalı diktatorlar: Porfirio Diaz, Xuan Visent Qomez, həmçinin SSRİ-nin siyasi lideri olmuş Stalinin xarakter məlumatlarından yararlanmış olduğu aşkarlanmışdır. Bu yarımbaşlıqda həmin siyasi liderlərin patriarx obrazı ilə əlaqələri və xarakter oxşarlıqları təhlil olunmuşdur.

 ISBN 978-625-7029-51-3 

***"Patriarx obrazının psixoloji təhlili"*** hissəsində patriarxın əsərdəki hərəkətləri, fəaliyyətləri, xarakteri incələnmiş; onun həyatına, qərarlarına və mənəvi-əxlaqi kimliyinin formalaşmasına təsir edən siyasi, ictimai, sosial amillər aşkarlanmış; buna əsasən də mənəvi-psixoloji varlığı təhlil olunmuşdur.

***"Nəticə"*** hissəsində araşdırma yekunlaşdırılmış, tədqiqat işi ilə bağlı konkret fikir və qənaətlərə yer verilmişdir.

**Açar sözlər**: *patriarx, diktator, Porfirio Diaz, X.V.Qomez, Stalin*

## Abstract

The study focuses on one of Marquez's most famous works, "The Autumn of the Patriarch." The work is a mirror to the writer's homeland - Colombia, as well as South America's history and political realities of the 19th and 20th centuries. In his work, the writer sought to create a generalized image of political leaders playing hell with dominance in the states that emerged after the end of the Spanish whiteness in the times of patriarchy. The research is devoted to the multiple analysis of the characteristics of those leaders reflected in the patriarchal image. The article consists of intoduction, three chapters (*Patriarch and Marquez; Prototypes of the Patriarch; Psychological analysis of the Patriarch's image*) and the result.

The *Introduction* section provides an overview of the work and its plot-line.

The *Patriarch and Marquez* section discusses the writer's attitude to the patriarch's image. In his interviews, Marquez sought to revive his character in a patriarchal image. This section focuses on the character traits that Marquez claims to have created in the patriarch's image, and gives a definite attitude.

The *Patriarch's Prototypes* section discusses dictators and political leaders who have been used for their character properties and trajectories of life to create the image of the patriarch. As a result, it was discovered that the writer used the character information of many South American dictators: Porfirio Diaz, Juan Vicente Gomez, and Stalin, the Soviet political leader. This section examines the relationship between the political leaders and the patriarch's image and character similarities.

In the section *Psychological analysis of the Patriarch's image* the actions, activities and character of the patriarch in the work are investigated; revealed political, social, and social factors that influence his life, decisions, and moral identity; based on this, the moral and psychological existence of patriarch was analyzed.

The *Conclusion* section summarizes the research and provides specific ideas and conclusions regarding the work.

**Keywords**: *Patriarch, dictator, Porfirio Diaz, H. V. Gomez, Stalin*

## Giriş

Dünya şöhrətli, Nobel mükafatı laureatlı yazıçı, magik-realizm ədəbi cərəyanının banilərindən biri olan Qabriel Qarsia Markezin ən məşhur əsərlərindən biri də “Patriarxın payızı” əsəridir. Müəllif həmin mükafatı aldığı “Yüz ilin tənhalığı” əsərindən çox bu əsərə önəm verir və bütün həyatını belə bir əsər yazmağa hazırlıq hesab edir. Əsərin ideyası nəinki müəllifin doğulduğu torpaqların, bütün dünyanın tarixinin ən dərin qatlarına nüfuz etməyə müvəffəq olmuşdur. Əsər indiyədək alışdığımız ənənəvi süjet-kompozisiya sisteminə malik deyil, yarı oçerk, yarı reportaj üslubunda yazılmış bir bədii əsərdir. Əsərin fabulası da ilk dəfə Aristotelin “Poetika” əsərində qarşılaşdığımız fabula anlayışına ziddir. Aristotelə görə, bədii əsərin fabula xətti elə qurulmalıdır ki, orada baş verən hadisələr və dəyişikliklər hansısa ehtimal və ya zərurətdən doğsun, episodi[1] kimi, əsərə əlaqəsiz şəkildə daxil edilməsin. Həmçinin, bu ehtimal və ya zərurətdən doğan hadisələr və ya dəyişikliklər qəhrəmanı bədbəxtlikdən xoşbəxtliyə, yaxud xoşbəxtlikdən bədbəxtliyə doğru sürükləsin, onunla (və ya onlarla) əlaqəsiz şəkildə cərəyan edib monotonluq yaratmasın. Araşdırılan əsərdə isə hadisə və dəyişikliklər ehtimal və ya zərurət nəticəsində (daha çox zərurət) ortaya çıxsa da bunlar qəhrəmanı nə xoşbəxtlikdən bədbəxtliyə doğru sürükləyir, nə də bədbəxtlikdən xoşbəxtliyə doğru qaldırır. Əsərdə, ümumiyyətlə, xoşbəxtlik, gözəllik adlandıra biləcəyimiz heç bir ucalıq, heç bir zirvə yoxdur. Ehtimal və ya zərurətdən doğan hadisələrin missiyası isə, Aristotelin təbirincə desək “bilinməyəni bilinən etməkdir”. Yəni ki, baş verən hər bir hadisə və ya dəyişiklik patriarx obrazının xarakter xüsusiyyətlərindən doğan təbii nəticələr olaraq ortaya çıxır və patriarx obrazının psixoloji mənzərəsinin getdikcə təsəvvürdə daha da aydınlanmasına gətirib çıxardır.

[1] Əsərin mərkəzi süjet xətti ilə əlaqəsi olmayan və ya az əlaqəsi olan hadisələrin təsvir olunduğu hekayələr, bir sözlə, yan hekayələr. Aristotel episodilərdən istifadə edən yazıçını qeyri-peşəkar yazıçı adlandırır.

## Patriarx və Markez

Müəllif müsahibələrində bu əsərin bir növ avtobioqrafiya olduğunu qeyd edir, düşünür ki, patriarxın əsl prototipi özüdür. Müəllifə görə, Nobel mükafatı aldıqdan və bütün dünyada tanınmağa başladıqdan sonra şöhrət və pul Markezlə real həyat arasında qopuqluq yaradır və ad-sanı ilə birgə yüksələn təkəbbürü həmin şöhrətin ucsuz-bucaqsız dalğalarına qapılıb daha da böyüyür, nəhəngləşir. Lakin zənnimcə, müəllif özünə haqsızlıq edir. Nəticədə, patriarx milyonların taleyini tarixə qanla yazmış amansız bir diktatordur. Müəllif isə şöhrətdən sonra qazandığı hansısa dəyişikliklərlə ancaq öz oxu ətrafında fırlanmışdır, başqalarının həyatına təsir etməmişdir. Diktator nə qədər zalım və qaniçən olsa da o, bunların fərqində deyildi. Xalqa verdiyi işkəncələri, müsadirə etdiyi pulları təbii haqqı kimi dərk edirdi. Hətta bəzən haqsızlığa məruz qalanın özü olduğunu zənn edirdi.

## Patriarxın prototipləri

Əsərdə tarix və zaman konkretliyi yoxdur. Nə əsərdə konkret bir zamana işarə var, nə də ki, əsər hansısa bir tarixi hadisəyə və ya hər hansı bir siyasi hərəkata həsr olunmuşdur. Sadəcə simvolik zaman var: patriarxın payızı. Bu simvolik zaman federalçıların vətən müharibəsində hakimiyyəti ələ keçirmiş; şöhrət və sərvət naminə insanlığını və insanlarını itirmiş; bu həyatdan öz əlləri ilə yaratdığı qan arxına tab gətirə bilməyib, axın istiqamətində irəliləməyə məcbur olacaq dərəcədə bezmiş; nəticədə, insanların qanını sovurduğu hörümçək torunda tənha hörümçəyə çevrilmiş bir diktatorun həyatının həmin tənha hörümçəyə çevrildiyi zamanı əhatə edir və əsər başdan-başa bu zaman dilimi üzərində qurulub. Ölkədə hakimiyyətin və gücün bütün qatları diktatorun ovcundadır. Diktatorun prototipi olan obrazlar konkistadorlar qitədən qovulduqdan sonra hakimiyyəti bölgələr üzrə aralarında bölüşdürən, vaxtilə vətənin müdafiəsində var-gücü ilə mübarizə aparmış generallardır. Venezuelalı Xuan Visent Qomez, Markos Perez Himenez; Meksikalı Porfirio Diaz; Qvatemalalı Manuel Estrada Kabrera və s. Bu siyahını daha da artırmaq olar. Çünki onların hər biri əsərdəki prezident kimi siyasi güclərini və iqtidarlarını ingilislərə, eləcə də, amerikalılara borclu olan və onların uğruna xalqının qanını içən diktatorlar olmuşlar. Hətta, Gerald Martin adlı onun fərdi tədqiqatçısı qeyd edir ki, Markez Rusiyaya səyahəti əsnasında Stalin haqqında çox şey öyrənmiş və obraz yaradıcılığında ondan da təsirlənmişdir.

“Generalın əlləri qadın əlləri kimi incə idi...” Həyatını qətliamlar və zorakılıqlar üzərində qurmuş bir despotun əllərinin qadın əlləri kimi olması kinayə doğurur, lakin bu həqiqət idi. Çünki general bu qətliamlarla şəxsən özü məşğul olmurdu. Ona qarşı çıxanlar ya onun arxasınca, ya da onun əmri ilə öldürülürdü. Hətta vəziyyət o yerə gəlib çatdı ki, Xose de la Barra adlı məxfi qatil “icarəyə götürdü”. Bu məxfi qatil hər gün saraya müəllifin kinayə ilə kokos kisəsinə bənzətdiyi, kəsik başlarla dolu kisə gətirirdi və sarayın iclas otağı üfunət qoxusuna qərq olurdu. Maraqlıdır ki, bu ölümlərdən özü də diksinirdi. Bu, şüuraltı ikiüzlülükdən irəli gələn bir mənəvi keyfiyyət idi. Milyonların qətlinə fərman verəndə tükü də tərpənməyən bu şəxs radio-roman dinləyərkən əsərin qəhrəmanı olan qızın ölümünə kədərlənir. Bu situasiya insanda ikrah hissi oyadacaq dərəcədə təzadlıdır. Bu detalı yaradarkən müəllif, ehtimal ki, Stalindən təsirlənmişdir. Stalin öldükdən həmən sonra müəyyən çətinliklərə baxmayaraq, onun məzarını ziyarət etmək üçün Sovet bürokratiyasından izn qopartmağa nail olan Markez Stalinin mumyalanmış cəsədini gördükdən sonra aldığı təəssüratlar barədə yazır: “Məni ən çox heyrətləndirən cəhəti əllərinin zərafəti idi. Dırnaqları da incə və şəffaf idi. Sanki qadın əlləri idi.” [3, 239]

Markezin Stalinlə bağlı təəssüratlarından aydınlaşdırmaq olur ki, patriarx obrazının yaradıcılığında onun başqa xüsusiyyətlərindən də təsirlənmişdir: “Onun icazəsi olmadan ağacda tək yarpaq belə, tərpənə bilməzdi. İnsanlar ona o qədər əfsanəvilik qazandırmışdılar ki, hətta varlığından da şübhələnirdilər...” Lakin müəllif qəhrəmanına əfsanəvilik xarakteri qazandıra bilmək üçün ona heç bir ad vermir, patriarx deməklə kifayətlənir. Adları çəkilən diktatorların hakimiyyətə gəldikdən sonrakı həyat trayektoriyaları, demək olar ki, eynidir.

***Porfirio Diaz***. Onun *porfiriato* adlandırılan bir siyasəti var idi: insanlara ancaq iki seçim sunurdu – “kök, ya dəyənək”. Biçarə insanlar, məmurlar, mətbuat işçiləri, bir sözlə, hamı qorxaq dovşan statusuna razı olub, ona sunulan kökü götürür və dəyənəkdən özünü bu şəkildə qoruyurdu. Öz hakimiyyətini əlvan metal yataqları bol olan torpaqlarını parçalayıb avropalı şirkətlərə sataraq sığortalayırdı. O, heç vaxt yerli xalqın müdafiəçisi olmayıb. Ancaq fərqində idi ki, xaricilərə də arxanı tam çevirmək olmaz və utanmadan: “Yazıq Meksika, tanrıdan necə də uzaqdadır, ABŞ-a isə necə də yaxın.” – deyirdi. Patriarx da xaricilərə nifrət edirdi, ancaq pullarını və donanmalarını çox sevirdi [2, 276].

***Xuan Visent Qomez***. Fidel Kastronun müalicəyə getməsindən istifadə edib Venezuellada iqtidarı ələ keçirdi. Ölkədə zəngin neft yataqları tapılan kimi onu avropalı və amerikalı şirkətlərə satdı.

Bütün Latın Amerikaya əli çatan ilk özünəməxsus geniş kəşfiyyat agentliyi yaratdı, ona müxalif olan hər kəsi illeqal yollarla həbs edib amansız işkəncələrlə "yox etdi". Ordunun dəstəyini sığortalamaq üçün xalqı aclığa və safələtə qərq etmək bahasına da olsa, orduya külli miqdarda maliyyə ayırdı. Patriarx da ona qarşı təşkil olunan üsyanı yatırtmaqda amansız davranmış əsgərlərə müxtəlif yüksək rütbələr (zabit, mayor, polkovnik) və mükafatlar paylamışdı [2, 243].

Digər generalların da həyat hekayələri yuxarıdakılardan fərqlənmir [3, 220]. Bu mövzuya müəllif "Yüz ilin tənhalığı" əsərində də toxunub. Həmin əsərdə patriarxa ekvivalent olan obraz polkovnik Aureliano Buendiyadır. Polkovnik də patriarx kimi böyük məqsədlər, amallar uğrunda vuruşur. Lakin onun mübarizəsi nəticəsiz qalır, hakimiyyəti ələ keçirə bilmir. Müəllif müsahibələrinin birində qeyd edir ki, əgər polkovnik müharibədə qalib gəlsə idi, yəni ki, konservatorlar deyil, liberallar qələbə çalsa idi həmin patriarxa çevriləcəkdi [3, 386]. Polkovnik hər nə qədər ümidsizliyə qapılıb, tənhalığında boğularaq ölsə də müəllif ümidsizliyinin əsl söykənəcəyi bu deyildi. Polkovnik ümidsiz tənhalığa qapılsa da patriarx kimi xalqın qanını içib ölkəsini satan diktatora çevrilmir. Halbuki, müəllifin haqqında yazmaq istədiyi əsl mövzu başqa idi. O, müharibədən qalib çıxmış və qələbəsindən sərxoş olub insanlığı nəfs və ehtiras sandığında toz basmış generalın həyatından yazmaq istəyirdi. Çünki qrinqolara qalib gəldikdən sonra xalqının başına amansız oyunlar açan generallar məhz həmin diktatorlar idi. Lakin bu iki tale tipinin heç biri generalları tənhalıqdan xilas edə bilmir. Onlar keçmişə peşmançılıqla baxmağa ərinəcək qədər yorğun və bezgin olduqları bir tənhalığın ağuşunda can verirlər.

## Patriarx obrazının psixoloji təhlili

Müəllifin bu obrazda yaratmağa çalışdığı psixoloji keyfiyyətlərinə və xarakter xüsusiyyətlərinə baxaq:

1. Real həyat haqqında, ümumiyyətlə, təsəvvürləri yoxdur, var idisə də yoxa çıxıb. Əsər boyu onda insani keyfiyyətlər müşahidə etmirik, yox dərəcəsindədir. Bütün əməlləri və davranışları heyvani instinkt üzərində qurulub. Onun daxili dünyası, demək olar ki, yoxdur. Monoloqları və onu insana bənzədən yeganə məqamlar yalnız anası Bendisyon Alvaradoya xitab edir.
2. Dini inancı da yoxdur, əsər boyu tanrı ilə məzələnir. Məsələn, Vatikan səfiri hərdən onu ziyarət edib xristianlığı təbliğ etməyə çalışanda patriarxın cavabı belə olur: "Əgər Allah-taala siz deyən kimi böyükdürsə, onda mənim xahişimi ona çatdırın: qoy məni bu

qulağagirən murdar ilbizdən uzaq eləsin... qoy bu köpdən canımı qurtarıb, artıq havanı içimdən çıxartsın" və s. Ancaq maraqlıdır ki, belə inancsız insanın batil inancları çox güclüdür. Havada quşların dövrə vurmasından qorxuya düşür və hansısa təhlükə gözləyir. Bundan əlavə, insanların və vətənin taleyini və bu uğurda apardığı siyasəti o, kart falı əsasında müəyyən edir. Falçı qadın kart falında polkovnik Miravanın generala xəyanət etdiyini görür və generala xəbər verməsinin səhərisi günü həmin polkovnikin cəsədi səbəbi bilinməyən bir intihar səhnəsində ortaya çıxır.

3. Həmişə qorxu içindədir, daim hər kəsdən xəyanət, sui-qəsd gözləyir. Buna görə də ordusunu daha yaxşı yetişdirməkdənsə zabitlər arasına təfriqə salıb can və hakimiyyət sağlığını bu şəkildə - onların birliyini pozaraq sığortalayır. Nəticədə, yaşadığı həyatdan bezib-tükənir, "dünya ilə daha bacarmır". Çünki heç kəsə inanmır. Səbəb odur ki, bütün işçilər yarı qorxudan, yarı vəzifə tələbindən irəli gələrək "hər şey öz qaydasındadır, zati-aliləri" şəklində hesabat verirdi. Halbuki, hər şey heç də həmişə qaydasında olmurdu. Patriarx isə elə bilirdi ki, onun gözündən pərdə asmağa çalışırlar.
4. Prezident xalqının onun haqqındakı real düşüncələrini və münasibətlərini ilk dəfə sarayda qızıl qəfəs həyatı yaşatdığı öz oxşarından – Patrisio Araqonesdən eşidir, o da ki, ölüm ayağında. Başqa cür ola da bilməzdi. Axı xalqın real münasibətlərində heç də prezidentə onun düşündüyü kimi sevgi yox idi. Prezidentin oxşarı olan Patrisio Araqonez ölüm ayağında prezidentin bütün murdar əməllərini açıb bir-bir düzür qabağına. Amma maraqlıdır ki, Patrisio onun ucbatından belə bir acımasız həbs həyatına sürgün olunduğu halda, ona qarşı qəzəbli deyil, əksinə acıyır, yazığı gəlir. Ölüm kimi bir ilahi qurtuluşa onu da çağırır. O, yəqin ki, xalqının içində yeganə insan idi ki, prezidentini belə səmimi bir məhəbbətlə sevirdi. Bu məhəbbəti anlamaq olar. Prezident qaniçən diktator olmaqla yanaşı, səmimi uşaqsı rəqabətlə Patrisio ilə şaxmat oynayan, onunla sirlərindən dərdlərindən tutmuş arvadlarına kimi (!) hər şeyini paylaşan yeganə sirdaşı və dostu idi (başqa dost edinməyə imkan da yox idi).
5. Qadınların toyuqdan fərqi yoxdur onun üçün. Qadınlarla olduğu məqamda müəllif patriarxı xoruza bənzədir, hərəmxanaya isə "qadın hini" adını verir. Çünki patriarxın qadınlara olan münasibəti, xüsusilə də intim səhnələri insanı yox, heyvanı, daha doğrusu, xoruzu andırır. Bir xoruzun öhdəsinə buraxılmış onlarla toyuq, qabağına çıxan toyuğun üstünə cuman azğın xoruzun olduğu bu saray, doğrudan da, toyuq-xoruz hininə bənzəyir.

Müəllif Xuan Qoseyn adlı bir jurnalistə verdiyi müsahibəsində demişdir ki, iqtidar iştahı eşqə qabil olmamaqdan irəli gəlir. [3,392] Doğrudan da, müəllifin yaratdığı, iqtidardan harınlamış obrazlar sevmək qabiliyyətindən məhrumdur, sevgini heyvaniliklə qarışdırırlar. Sevgi elə bir duyğudur ki, insanları həssaslaşdırır, eqonu arxa plana atır və özünü unudub birinci başqalarını düşünmək qabiliyyəti aşılayır. İqtidar aşiqləri isə nəinki yalnız özlərini düşünür, sayı milyonlarla ölçülən başqalarını da öz eqolarına qurban verirlər.

6. Həm qatildir, həm qurban. Həm milyonların qanını içən qatildir, həm də öz yaratdığı siyasət torunda ilişib, bezsə belə, heç bir şəkildə kənara çıxa bilməyən, prezident sarayının divarları arasında həbs olunan qurbandır.
7. Onun əvvəlcədən təşkil olunmuş saxta ölümündən sonra ölkəni üsyan dalğası bürüyür. Lakin o yenə də elə bilir ki, bu xalqın nifrəti deyil, prezidentlə arası olmayan bir neçə generalın fəndləridir. O hələ də elə bilir ki, xalq onu sevir.
8. İnsanlara verdiyi amansız işkəncələr (üsyançıları diri-diri timsahlara atmaq, dərisini soymaq, ayaqlarını başıaşağı tavana mismarlamaq və s.) onun üçün sadəcə “təhlükəsizliyi təmin etmək” yolunda atılmış “uğurlu” addımlardır.
9. Prezidentin yazıb-oxuma bilməməsi onun savadsızlığını və cahilliyini simvollaşdırır. Bu boyda ölkənin tale sükanının əlifbanı belə, bilməyən birinin əlində olması faktı ilə müəllif çatdırmağa çalışır ki, ölkədə baş verən vəhşiyanə və xaotik nə varsa hamısının səbəbi ölkə prezidentinin dərrakəsində də, mənəviyyatında da böyük qara bir boşluq olmasından; olması gərəkən keyfiyyətlərdən əlifbasına, hərflərinəcən kasad olmasından qaynaqlanır.
10. Prezidentin hələ hakimiyyətinin ilk illərində şəxsi həyatının da idarə sükanı ölkəsini satdığı qrinqoların əlində idi, qadınlarını belə, seçmək hüququndan məhrum idi. Qrinqolar qərar verirdi, hansı qadın prezidentə layiqdir, hansı deyil. Patriarx həm ölkəsinin prezidenti idi, həm də anasının təbirincə desək, “heç nəyi yox idi, ayağını uzadıb ölmək üçün bir qarış torpaq belə, almamışdı”. Əlbəttə, axı torpaqları qrinqolara satmışdı, “bir qəbir qədər”ini də saxlamamışdı. Lakin sonradan hakimiyyəti nə qədər güclənsə də bu qrinqolardan canını qurtara bilmir və işin axırı dənizi onlara satmaqla nəticələnir. Ondan sonra da diktatorun canına bir qorxu dalğası hakim kəsilir: ölülərin ruhunun satılmış dənizə görə ondan hesabat tələb etmək üçün “ziyarətə” gələcəklərini hiss edir.

11. Prezident xəzinə pulları ilə baha qiymətə xaricilərdən oyuncaqlar alır. Onun uşaq kimi oyuncaq alması da simvolikdir. Sanki müəllif bu məqamda çatdırmağa çalışır ki, ölkə heç bir yetkinliyə və kamilliyə çatmamış, hakimiyyəti oyuncaq yerinə qoyub, xalqın pulunu öz eqosunu əyləndirməyə sərf edən bir südəmərin əlində qalmışdır.
12. Ölkədə yazılmamış qanunlardan biri də budur ki, bütün xalq onun kefinə düşən havaya oynamalıdır. Bir qadına görə yuxusuzluq azarı çəkən prezident gecə saat 3-də oyanıb bütün aləmə "qalxın sarsaqlar, saat səkkizdir" deyə ultimatum göndərən kimi sübh şeypurları ölkə boyu çalınır, şəhər oyanmağa məcbur olur, bütün idarə və təşkilatlarda, zavod və fabriklərdə yuxudan doymamış millətin qızğın fəaliyyəti başlayır, bir sözlə, bütün aləm dəyir bir-birinə. Kimin "ağzı nə idi" ki, saatın üç olduğunu desin. Buna despotizmin kinayəli obrazlandırması da demək olar.
13. Maraqlıdır ki, general Sançesin anasından çəkinir, qıza ürəyi istədiyi kimi yaxınlaşa bilmir. Halbuki, belə bir despot qızın anasını da ya satın almalı, ya da "bir yolunu tapmalı" idi. Hətta, "qadın hini"ndən qıraqda birlikdə olduğu digər qadınlarla bundan da betər rəftar eləmişdi. Məsələn, Fransisko Linero adlı bir hindu qadından xoşu gəlir deyə onun evinə soxulub ərini öldürtür, özünə isə təcavüz edir. Buna heç kəs səsini belə, çıxartmır. General, Fransiskoya təcavüz etdiyi illərdə şöhrətin və hakimiyyətin qudurtduğu bir vəhşiyə çevrilmişdi, bütün siyasi bicliyi və fəndləri nəticəsində qazandığı güc ondan vəhşi bir despot yaratmışdı. Lakin Manuela Sançezin dövründə o, artıq qocalmış, qocaldıqca uşaqlaşmış, vaxtilə ona hakim olan həmin siyasi bicliyindən də məhrum qalmışdı. İndi ancaq əyləncə axtarırdı. Buna baxmayaraq, despotizmi onun qaranlıq ruhunu tərk edə bilməmişdi. Manuela Sançezə çox dəyər versə də onu hakimiyyətinin zəhmli qandalları ilə zəncirləmişdi. Bununla müəllif despotizmin dəhşətini despotun qadınlara münasibəti ilə bağlı səhnələri bu şəkildə canlandıraraq obrazlandırmağa çalışır.
14. General Manuela Sançezə aşiq olub hər gün onun evini ziyarət etdiyi ərəfələrdə xalq generala belə bir şeir qoşmuşdu: bunu bilir hamı, bu boyda məmləkətə, şahlıq edir yuxuda. Bunun iki mənası ola bilər: a) eşq yuxusuna gedib ölkəni ölkədən xəbərsiz, beləcə yuxu görə-görə idarə edir; b) özündən xəbərsizdir, elə bilir ki, hər şeyin idarəsi onun əlindədir, halbuki ayaqüstə yatır. Manuelanı görməyə gəldiyini gizlətdiyini sanır.

Ancaq müdafiə naziri Rodriqo de Aqilyarın kəşfiyyatçı qrupu sayəsində nəinki ölkə rəsmilərinin, bütün xalqın bu eşq macərasından xəbəri var idi.

15. Onu sevənlərin də, sevməyənlərin də yeganə qisməti lənət və ölüm idi. Bu ölümlər ya onun əmri ilə baş verir, ya da ki, bu ölümlərdən ümumiyyətlə heç vaxt xəbəri olmurdu.
16. Buradakı diktator obrazı elədiyi vəhşiliklərin və haqsızlıqların fərqində deyil. Zorla ələ keçirilmiş varidatın xalqın haqqı olduğunu, zor gücünə onların damarlarından sovurduğunu düşünmür, özünün təbii haqqı kimi qəbul edir. Onun həyat kitabı budur: belə də olmalıdır.

## Nəticə

Bu xarakter haqqında cild-cild kitab yazmaq olar. Bunu əminliklə vurğulaya bilərik ki, Markez diktator obrazını özünəməxsus şəkildə yaratmışdır. Əsərdə diktator barədə həqiqətlərin yansıdılmasından əlavə, Markezin bu obraza özünəməxsus yanaşması var. Patriarxın əsərboyu törətdiyi cinayətlər, amansız işkəncələr və kütləvi qətliamlar diktator obrazlarının yaradıldığı bir çox əsərlərdəki kimi sadəcə səbəb olaraq deyil, eyni zamanda nəticə kimi də canlandırılıb. Onun əməlləri xalqını ucsuz-bucaqsız bədbəxtliyə məhkum edən səbəblər olmaqla yanaşı, həm də patriarxın həyat təcrübəsindən, fərdi yaşantılarından, aldığı psixoloji təsir və təzyiqlərdən doğan nəticələr kimi ortaya çıxır. Məşhur Latın Amerika tarixçisi Con Çarlz Çastin tədqiqatlarında Cənubi Amerikanı "atəşlə və qanla yoğrulmuş torpaqlar" adlandırır. Çünki bu torpaqlar avropalı konkistadorların tilovuna düşdüyü andan günümüzə yaxın dövrlərə qədər yerli xalqlar heç bir fasilə vermədən gah gəlmə, gah da yerli ağalara qarşı daim azadlıq uğrunda milyonların irini-qanı bahasına vuruşmuşlar. Markezin heç bir əsərində biz gəlmə ağaların bu cür canlı və ustalıqla yaradılmış obrazını görmürük. Yazıçının, demək olar ki, bütün yaradıcılığında canlandırmağa, haqqında bir çox vacib ictimai-siyasi, eyni zamanda fərdi-psixoloji həqiqətləri deməyə çalışdığı qaniçən rəhbər obrazları yerli ağalardır, xalqın sapı özlərindən olan baltalarıdır. Əsərdə əks olunan zaman dilimi də 1821-ci ildə Ayakuço döyüşündən sonra azadlıq qazanan Latın Amerikanın yerli diktatorlara həvalə olunması ilə başlayır. Lakin azadlıq yalnız kağız üzərində qazanılır: dəyişən sadəcə xalqı talayan qaniçən rəhbərlərin milli kimlikləri idi. Bu torpaqlar azadlıq qazandığı halda niyə hələ də əsarətdən, despotizmdən xilas ola bilmirdi? Yazıçı patriarx obrazı timsalında Latın Amerikanın diktatorlarının ümumiləşmiş obrazını yaradaraq əslində bu sualı cavablandırmağa çalışmış və buna nail olmuşdur.

## Ədəbiyyat siyahısı

1. Adıvar, Adnan. “Tarih Böyunca İlim ve Din” (I-II cilt). Evrim Matbaacılık LTD. İstanbul, 1987
2. Aristotel. “Poetika”. Bakı: Şərq-Qərb, 2006
3. Chasteen, John Charles. Latin Amerika Tarihi. Ankara: Say Yayınları, 2012
4. Gerald, Martin. "Gabriel Garcia Marquez". İstanbul: Türkiye İş Bankası Kültür Yayınları, 2012
5. Kardeşler, Kıvanç. *Yüreğini kolla, ölmeden çürüyorsun Gabriel Garcia Marquez*. Ankara: Yason Yayınları, 2016.
6. Markez, Qabriel Qarsia. *Patriarxın payızı*. Bakı: Qanun Nəşriyyatı, 2011.
7. Markez, Qabriel Qarsia. *Yüz ilin tənhalığı*. Bakı: Qanun Nəşriyyatı, 2011.
8. Marquez, Gabriel Garcia. *Anlatmak İçin Yaşamak*. İstanbul: Can Yayınları, 2016.
9. O'loughlin, Thomas. Early Medieval Exegesis in the Latin West: Sources and Forms. UK, Routledge, 2013
10. Özbudun, Sibel. Latin Amerikada Yerli Hareketleri.Ankara: Dipnot Yayınları, 2012